# Salam, ay bizim dağlar



Millət qalxıb ayağa,
And içibdi torpağa.
Gəlirik Qarabağa,
Salam, ay bizim dağlar!

Döyüşdədir oğullar,
Qorxub qaçır o qullar.
Salam, ay bizim yollar,
Salam, ay bizim dağlar!

Mən o yaldan aşmadım,
Gəzmədim, dolaşmadım.
Mən ki vidalaşmadım,
Salam, ay bizim dağlar!

Yoxa çıxan əliklər,
Üşüyən kölgəliklər,
Qırılan meşəliklər,
Salam, ay bizim dağlar!

Vətən uğrunda gedən
Vətən oğludu Vətən!
Doğuluruq yenidən,
Salam, ay bizim dağlar!

Qaçıb yerin yuxusu,
Azərbaycan Ordusu,
Səni Tanrı qorusun,
Salam, ay bizim dağlar!

Yağışa bax, yağışa,
Tanklar qalxır yoxuşa.
Salam, Xankəndi, Şuşa,
Salam, ay bizim dağlar!

Salam, Vaqif, baş vəzir,
Xalq qoşunla birləşir.
Qurd hələ fikirləşir,
Salam, ay bizim dağlar!

Çağır ulu öndəri,
Azərbaycan əsgəri
Heyran qoydu bəşəri.
Salam, ay bizim dağlar!

İlham baş sərkərdədi,
O daim səngərdədi.
Şöhrəti dillərdədi,
Salam, ay bizim dağlar!

Yenə göy gurlayacaq,
Yenə şimşək çaxacaq,
Sellər-sular axacaq,
Salam, ay bizim dağlar!

Dünya şahmat xanası,
Qələbə - astanası.
Salam, şəhid anası,
Salam, ay bizim dağlar!

***Nəriman HƏSƏNZADƏ***
***xalq şairi***

*06.04.2016*